

■ Güllü Eldarqızı

## GƏZİRƏM

Hələ bərkiməyib dizi fikrimin,
Hələ əriməyib buzu fikrimin,
Hələ açılmayıb gözü fikrimin,
Hələ ki aləmi naşı gəzirəm.

Saymadım, bilmirəm neçədi dərdim,
Bəlkə də ürəyi haçadı dərdim?!
Dərbənddi, Təbrizdi, Göyçədi dərdim,
İtib üzüyümün qaşı gəzirəm,

Bu dağlar səbrimin görünən üzü,
Hələ keçilməyib dərəsi, düzü.
Hələ biçilməyib arşını, bezi,
Qarışıb dünyanın başı gəzirəm.

Sınıq Körpü-sınıq könlüm simsarı,
Dərdin üzü yaranandan sapsarı.
Zaman deyir; ömür yarı, gün yarı,
Qəfəsdə könlümün quşu, gəzirəm.

Bu dövran dəyişib, zamana dönüb,
Hardasa bir ümid gümana dönüb.
Üzülməz, keçilməz ümmana dönüb,
Qəlbimdə gözümün yaşı, gəzirəm.

Görsəm də nə qədər canda ağrı var,
İçimdə o qədər haqqa çağrı var.
Harda həqiqət var, harda doğru var-
Kəlməbaşı, addımbaşı gəzirəm.

## İSTƏRƏM

Üzü haqqa doğru yol gedirəm mən,
Mənzilə varmağa zaman istərəm.
Dəriyalar keçirəm, dağlar aşaram.
Yolları yormağı hər an istərəm.

Fikirimdə, zikirimdə o xoş niyyətim,
Ordadı ən ulu səmimiyyətim.
Gedərəm bir ömür, varsa qüdrətim,
O ulu dərgahdan fərman istərəm.

Məni o mənzilə bir sur aparar,
Məni o mənzilə bir nur aparar,
Ruhumda qaynayan qürur aparar,
Tanrıdan bir ömür aman istərəm.

Əqidəsiz həyat varsa-bir zəhər,
Haqdan ayrı ömür hədər, gün hədər.
Olsa əgər canda ağrı, dərdi-sər,
Quranı dərdimə dərman istərəm.

Hər kəs bir yolçudur ömür yolunda,
Yazar mələklər sağı-solunda.
Bir dua var bu Güllünün dilində,
İmanı özümə mehman istərəm.

## BU YURDA

Aranına, yaylağına vuruldum,
Çeşmələrin saflığında duruldum,
Mizanına, qurğusuna quruldum,
Anam dedim, Vətən dedim bu yurda

”Kəmənd bulağı”na dərman demişəm,
”Heyvalı bulağı”a loğman demişəm,
”Yeleylər”ə canımı qurbam demişəm,-
Anam dedim, Vətən dedim bu yurda.

”Ağ oğlan” taleden bir ulu nəmər,
”Saf dərə”də qurulur çox binələr.
Kəmərlim ömürlük bir qızıl kəmər,
Anam dedim, Vətən dedim bu yurda.

Çağlar oldum sinəm tel-tel olanda,
Sevincimdən gözüm yaşla dolanda.
Aşıq qardaş bir ”Urfanı” çalanda,
Anam dedim, Vətən dedim bu yurda.

Muraz verdi əzəldən bu yurd mənə,
Yollar açdı dağlarda boz qurd mənə.
Güllü bilər yaxın düşməz dərd mənə,-
Anam dedim, Vətən dedim bu yurda.

## GEDİRƏM

Sizə yön çevirdim, ay İncəlilər,
Gəldim, ətrinizi duyub gedirəm.
Arzuların, diləklərin dür-gövhər,
Bu cənnət məkandan doyub gedirəm.

Qulağımdan dastan deyir saz səsi,
Qara-zurna dədələrin bəstəsi,
İncəsuda qız-gəlinin dəstəsi...
Durna qatarına dəyib gedirəm.

Bir qımqımı, bir bayatı istədim,
Mən bu eli, bu həyatı istədim,
Yenə döndüm halal dadı istədim.
Ruhun qapısını döyüb gedirəm.

Dizin-dizin varam gedəm çöllərə,
Səcdə qılam obalara ellərə,
İzimi saxlayan o boz yollara,
Bir layla, bayatı deyib gedirəm.

Bircə udum təsəllidi bu yazı,
İstəmirəm yurda olam tamarzı.
Sözün müxtəsəri, ay Eldarqızı,
Ürəyimi burda qoyub gedirəm.

## GÖZLƏRİM YOL ÇƏKİR

***Elatın memarı - Borçalı Cəmiyyətinin sədri Zəlimxan bəyə***

Bu gün yaman kövrəlmişəm, ay ellər,
Başkeçidin növrağını istərəm.
Gözlərim yol çəkir - xeyirə dönsün,
Bir müjdənin sorağını istərəm.

Könül dilər bir kəhərə atlanam,
Ara-sıra qınaqlara qatlanam.
Sevinc görəm, şadlıq görəm, şadlanam,
Armudlunun yaylığını istərəm.

Süfrə salam uzaqlardan gələnə,
Salam verəm ”əlyek”imi alana,
Ürəyimə yurd sevinci calana,
Əziz günün qonağnı istərəm.

Samovarım asta-asta dəmlənə,
Dost sevinə, düşmən baxıb qəmlənə,
Elim, gülüm, toparlana, cəmlənə -
Ərənlərin sorağını istərəm.

Haray salam dağlarımın özündə,
Binə quram bulaqların gözündə,
Sir gəzməyin siz Eldarın qızında, -
Murazımın bayrağını istərəm.